# FHN əməkdaşlarının peşəkarlığı Türkiyədə təqdir edilir

**Türkiyənin Muğla Meşə Təsərrüfatı İdarəsinin rəisi Yasin Yaprak meşə yanğınlarının söndürülməsində iştirak etdiyi üçün Azərbaycandan gedən yanğınsöndürənlərə təşəkkür edib.**

“Muğla meşələrində yanğın söndürmənin artıq 3-cü günündəyik və yanğını nəzarət altına aldıq”, - deyə o bidilrib.

Yasin Yaprakın sözlərinə görə, ilkin məlumatlara əsasən, meşədə 1500 hektar ərazidə yanğın olub. Lakin detallı məlumatlar yanğından sonra olacaq. “Çox şükür ki, itkilərimiz çox deyil. 3 kənd boşaldılıb. Bu kəndlərin hərəsində də 4-5 ev zərər görüb. Yanğının baş verdiyi ilk gün bir vətəndaşımız yanğınsöndürənlərə dəstək olarkən həyatını itirib. Allah rəhmət eləsin. İndi isə yanğın qismən nəzarət altındadır. Günün sonuna kimi tam nəzarət altına alacağımızı düşünürük”, - deyə Yaprak bildirib.


Kardeş ülke Azerbaycan'ın yangın söndürme ekipleri Türkiye'ye giriş yaptı!

Türkiye'de günlerdir devam eden orman yangınlarıyla mücadelede destek olmak için Azerbaycan'dan 54 tam donanımlı itfaiye aracı ile birlikte gelen 250 kişilik yangın söndürme ekibi, Artvin'in Sarp Sınır Kapısı'ndan Türkiye'ye giriş yaptı.



YENİÇAĞ

İyi ki varsın kardeş Azerbaycan! Türkiye yangınlarla boğuşurken böyle yardıma koştular...

Azerbaycan Olağanüstü Haller Bakanlığı'na bağlı ekiplerin ikinci grubu, orman yangınlarıyla mücadeleye destek için Türkiye'ye gönderildi.



Kardeş Azerbaycan Türkiye'nin yanında


Azərbaycanlı yanğınsöndürənlərin peşəkarlığına və intensiv dəstəyinə toxunan Yasin Yaprak onların hər birinə, habelə Azərbaycan rəhbərliyinə təşəkkür edib: “Günlərdir davam edən çətin və təhlükəli yanğınsöndürmə əməliyyatlarında bizə dəstək olan qardaş Azərbaycana, azərbaycanlı yanğınsöndürənlərə və onların göndərilməsini təmin edən ölkə rəhbərliyinə dərin təşəkkürümü bildirirəm. Onlarla birlikdə apardığımız fəaliyyət çox əlverişli oldu, buradakı əməliyyatlarda da öz peşəkarlıqlarını nümayiş etdirdilər”.

Azərbaycan.- 2021.-3 avqust.- S.3.